Azərbaycan

6 18 mart 2021-ci il

# İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin göstərişinə əsasən, ən yüksək səviyyədə quruculuq işləri aparılır




**“İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin göstərişinə əsasən, ən yüksək səviyyədə quruculuq işləri aparılır”.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bu fikri martın 17-də Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Vətən müharibəsində iştirak etmiş bir qrup həkimlə görüşərkən səsləndirib.

Qonaqları Milli Məclisdə salamlayan sədr müavini Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın düşmən işğalından azad edilməsindən danışaraq, bu Qələbənin ölkəmizin şanlı tarixinin ən parlaq səhifəsi olduğunu qeyd edib. Bildirib ki, bu Qələbə dövlət başçısı tərəfindən diplomatik müstəvidə də uğurla davam etdirilib.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə səfərlərinə diqqətçəkən sədr müavini oradakı vəziyyətin rəsmi İrəvanın vandalizm siyasətinin sübutu olduğunu qeyd edib. Əlavə edib ki, bu dağıntılardan görünür ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerləyeksan etməklə tarixi irsimizi silməyə çalışıb.

Adil Əliyev işğaldan azad olunmuş ərazilərə yeni nəfəsin gəlməsindən məmnunluğunu ifadə edərək bu ərazilərimizin dünyanın ən gözəl guşələrindən birinə çevriləcəyinə əminliyini bildirib. Qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə infrastruktur layihələri fasiləsiz icra olunur. Bu baxımdan dövlət başçısının səfəri zamanı martın 15-də Füzuli-Hadrut avtomobil yolunun təməlqoyma mərasiminin keçirilməsi böyük əhəmiyyətə malikdir.

Sədr müavini bu gün bərpasına başlanılan ərazilərimizin güclü siyasi iradə, diplomatik mübarizə və şəhidlərimizin qanı hesabına başa gəldiyini qeyd edərək şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyib.

Görüşdə iştirak edən həkimlər torpaqlarımızın düşmən işğalından azad edilməsindən qürur duyduqlarını və yaralanmış hərbi qulluqçularımıza xidmət göstərməyin onların vətəndaşlıq borcu olduğunu diqqətə çatdırıblar. Söhbət zamanı qazilərimizin daim diqqət mərkəzində saxlanmasının vacibliyi vurğulanıb.

Sonda Vətən müharibəsində xidmət etmiş həkimlərə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanları təqdim olunub.